

**Fazil Sənan,**
**yazıçı-publisist**

# YANAR ÜRƏYİN GÖZ YAŞLARI

## Şair-publisist Səlbi Baxışın ad gününə

**Səhərki tədbirə dəvət almışdı. Halı heç özündə deyildi. Hər il də belə olurdu. 26 fevralda o biri dünyanı görüb yenidən qayıdırdı. Həmin vəziyyəti yenə yaşamağa başladı. Əsəbləri gərilir, içindən keçən ağrı bütün bədəninə yayılır, dodaqları səyriyir, gözləri az qalır hədəqəsindən çıx-sın.**

Heç cür unuda bilmirdi o müthiş gecəni. Oxuduqları, televizorda gördükləri, hadisənin şahidlərinin söylədikləri gözü önündə canlandıqca yanaqları boyunca süzülən göz yaşları ilə öz-özünə təsəlli verirdi. Nə qədər göz yaşları ilə ovunmaq istəsə də bacarmırdı.

Köksündə yumruq boyda olan ürəyi od tutub yanırdı.

Ürəyinin şöləsində yandırılan evləri görür, ah-vayları ilə gecənin qaranlığında kömək diləyən qocaların və uşaqların səsini eşidirdi.

Yanırdı ürəyi, qarda, şaxtada donub ölənləri gözü önünə gətirdikcə.

Yanırdı ürəyi, qız, gəlinlərin əsir aparılmasını düşündükcə.

Yanırdı ürəyi, namusunu qorumaq üçün özünü qayadan atan gəlinlərin acı taleyini fikirləsdikcə.

Yanırdı ürəyi, çaydan keçmək üçün günahsız uşaqların meyitlərindən körpü düzəldib üstündən keçən düşmənin alçaqlığını yaddaşında çözələdikcə.

Yanırdı ürəyi, din qardaşlarının köməyi ilə ermənilərin Xocalı adlı bir Azərbaycan şəhərini yer üzündən silməsinə, insanlığa sığmayan soyqrımı həyata keçirməsinə dünya ictimaiyyətinin sus-ması, beynəlxalq təşkilatların heç bir reaksiya verməməsini fikirləşdikcə göz yaşları yanaqlarından aşağı süzülürdü.

Özünün də 26 fevral ilə 27 fevralın qovuşuğunda doğulması bir təsadüfdürmü, yoxsa gələcəkdə soyqrım zamanı günahsız öldürülənlərin əvəzindən illər öncə təbiətin bir zərurətidirmi. Bunu hələ də özü üçün aydınlaşdıra bilmirdi. Bir məsələni yəqinləşdirmişdi. Ömrünün son gününə kimi ad gününü qeyd etməmək.

Ad gününü hər il Xocalı soyqrımı zamanı dəvət aldığı tədbirlərdə etdiyi çıxış və oxuduğu şeirlə düşmənə nifrətini bildirməklə qeyd edirdi. Bunu ancaq bir özü bilirdi.

Tədbirin başlanmasına az qalıb. Adam əlindən tərpənmək mümkün deyil. Zalda əyləşənlərin hamısı qara geyimdədirlər. Əvvəlcə məhv edilmiş Xocalının dağıntılarını özündə əks etdirən video-çarx nümayiş olunur. Şaxtalı soyuq qış gecəsində soydaşlarımızın meyitləri göstərilir. Dağıntılar altında qalan körpə, günahsız balalarımızın solmuş çöhrələri işıqlandırılır. Bunları göz yaşsız izləmək olmur. Sonda qalib Xocalıya aid video-çarxa baxanda isə əyləşənlərdə xoş bir əh-val-ruhiyyənin yarandığını görürük.

Çıxış edənlər bir-birini əvəz edir. Aparıcının "İndi də söz verilir şair-publisist Səlbi Baxışa" deməsi ilə salonda əyləşənlərin diqqəti istər-istəməz kürsüyə doğru ahəstə addımlarla irəliləyən uzun boylu, nazik bədənli, qara kəsik saçları çiyinlərinə tökülmüş qadına tikilir. Salonda əyləşən-lərin maraq dolu diqqətini kürsüdə öz üzərinə cəmləyən şairə bir anlığa salonu gözdən keçirərək aramla çıxışına başlayır. Və tədricən səs tonunun yüksəlməsi, mimika və jestlərində düsmənə qarşı olan nifrətinin görünməsi salonu sükuta boğur. Bu çıxış zamanı tamaşaçıların baxışında bir heyrət nidası oxunur. Şairəni tanıyanların "Həmişə öyrənməyə daha çox üstünlük verən, da-nışanda körpə uşaqlar kimi utancaq görünən bu zərif qadının içində düşmənə qarşı nə qədər nifrət hissi var imiş deməsi və bəlkə də bu qadının nifrəti ilə elə bu gün Ermənistanı məhv etmək olar. Halaldı, Sizə, şair" - düzdü sözləri keçdi ürəklərdən.

Səlbi yana-yana danışır. Qollar geniş açılır və gözlənilmədən yaxınlaşan nazik, uzun barmaqları bir-birində kilidləşərək sanki düşmənin boğazından yapışıb boğur.

Kürsüdə çıtır-çıtır yanan Səlbi Baxış gözlənilmədən yazdığı "Xocalı" şeirini söyləməyə baslayır. Sanki yazdığı şeirlə Xocalı yarasına bir məlhəm çəkir.

*Xocalı faciəsi həkk olub yaddaşıma,*
*Soyqrım səbəb oldu bu axan göz yaşıma.*
*Xocalıda o gecə söndü neçə ocağım,*
*Qırdılar məsumları, al boyandı qundağım.*

* * *

*Körpəsiz boş yellənib, inləmişdi beşiyim,*
*Namərd azğınlığından dağılmış ev-eşiyim.*



Şeir tamamlanır. Aparıcı yaxınlaşaraq "Səlbi xanım, siz ki ağlayırsız" deyir.

- Bəli ağlayıram. Bu yanan ürəyimin göz yaslarıdır.

Amma bu fərqli göz yaşlarıdır. Yanağımda görünən göz yaşları sevincdən axan göz yaşlarıdır.

Bu gün düşməndən qisas alındı. Yer üzündən silinmiş Xocalının işğal olunmuş torpaqları azad olundu. Qalib ordunun, qalib liderin "Qarabağ Azərbaycandır" deməsi öz real təsdiqini tapdı. İndi yanağımda gördüyünüz göz yaşları sevinc göz yaşlarıdır, deyir şair Səlbi Baxış və alqışlar altında kürsüdən ayrılır.

Hörmətli Səlbi xanım!

Bəlkə də ad gününüzü bu formatda təbrik etmək sizin üçün də maraqlı görünə bilər.

Təbrikin bu formatda yazılmasına səbəb sosial şəbəkədə təsadüfən Xocalının anım günü ilə bağlı video-çarxa baxarkən çıxışınızın emosional və təbii olması oldu. Bilmirəm sizin ad gününüzlə bağlı qələmə aldığım bu düşüncələrimi necə qarşılayacaqsınız.

Bu nasirin şairə olan hörmət və istəyindən doğan mülahizələridir.

Sizin ad gününüzü ürəkdən təbrik edirəm. Uzun ömür və cansağlığı arzulayıram. Arzu edirəm Allah verən ömrü ömür yoldaşınızla birgə yaşamaqla bərabər, nəvə-nəticə toyu görəsiniz.

**Yadımdan çıxmışdı. Yaradıcı adama ən böyük dilək onun qələminin işlək olması və oxucularını yeni-yeni əsərlər ilə sevindirməsidir. Bu mənada qələmlə həmişə aranızda dostluq, mehribançılıq və sevgi olsa, yeni-yeni əsərlərinizi oxuyarıq. Qələmlə olan dostluğunuz heç vaxt pozulmasın! Amin!**